# Kiçik su elektrik stansiyalarının özəlləşdirilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ölkənin su ehtiyatlarından elektrik enerjisi istehsalı üçün səmərəli istifadə edilməsi və yerlərdə enerji təchizatının yaxşılaşdırılması məqsədi ilə və "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"na uyğun olaraq **qərara alıram:**

1. "Azərenerji" Səhmdar Cəmiyyətinin bu Sərəncamının əlavəsində göstərilən kiçik su elektrik stansiyaları özəlləşdirməyə açıq elan edilsinlər.
2. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi kiçik su elektrik stansiyalarının qanunvericilikdə nəzərdə tutulmuş qaydada özəlləşdirilməsini təmin etsin.[1]
3. Müəyyən edilsin ki, kiçik su elektrik stansiyalarının özəlləşdirilməsində yerli investorlarla yanaşı xarici investorların da iştirakına icazə verilir.
4. "Azərenerji" Səhmdar Cəmiyyətinə tapşırılsın ki, bu Sərəncamın əlavəsində göstərilən kiçik su elektrik stansiyaları özəlləşdirilənədək onların idarə olunmasına və əmlakının qorunub saxlanılmasına məsuliyyət daşıyır.
5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 21 dekabr 2001-ci il
№ 844

Azərbaycan Respublikası Prezidentinin
2001-ci il "21"dekabr tarixli 844 №-li Sərəncamına
ƏLAVƏ

Özəlləşdirməyə açıq elan edilən kiçik su elektrik stansiyalarının
SİYAHISI

1. "Quba" kiçik su elektrik stansiyası
2. "Qusar" kiçik su elektrik stansiyası
3. "Şəki" kiçik su elektrik stansiyası
4. "Çiçəkli (Zurnabad)" su elektrik stansiyası
5. "Muğan" kiçik su elektrik stansiyası
6. "Zeyxur" kiçik su elektrik stansiyası
7. "Nügədi" kiçik su elektrik stansiyası
8. "Balakən" kiçik su elektrik stansiyası
9. "Çinarlı" kiçik su elektrik stansiyası

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 7, maddə 590**)
2. 2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, № 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 7, maddə 610)**

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 7, maddə 590**) ilə 2-ci bəndində "**İqtisadi İnkişaf Nazirliyi**" sözləri "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, № 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 7, maddə 610)** ilə 2-ci bəndində "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.